


**1994**-cü il fevralın 24-də Azərbaycan Respublikasının Milli Məclisi erməni təcavüzkarları tərəfindən törədilmiş Xocalı soyqırımı haqqında Milli Məclisin Qaçqınlar və xaricdə yaşayan soydaşlarla əlaqə komissiyasının təklifini müzakirə edərək qərara alıb: 1992-ci il fevralın 26-da erməni təcavüzkarları tərəfindən törədilmiş, Azərbaycan xalqının milli faciələrindən və bəşər tarixinin qanlı səhifələrindən biri olan Xocalı hadisələri hər il fevralın 26-da "Xocalı Soyqırımı Günü" elan olunsun və bu barədə beynəlxalq təşkilatlara məlumat verilsin. Xocalı hadisələri barəsində həqiqətin dünya xalqlarına çatdırılması və "Xocalı Soyqırımı Günü"nün beynəlxalq miqyasda keçirilməsi üçün dünya azərbaycanlılarına müraciət edilsin.

# Faciənin dünyaya tanıdılmasında tarixi qərar

Sənəddə qeyd olunurdu ki, əcdadlarımızın və bizim müqəddəs Vətənimiz olan Azərbaycan torpaqlarında, müstəqil Azərbaycan Respublikasının ərazisində 6 ildir ki, müharibə gedir. "Böyük Ermənistan" xülyası ilə erməni xalqının başını dumanlandırmış Ermənistanın müxtəlif ölkələrin irtica qüvvələri ilə birgə ölkəmizin 12 rayonunu zəbt etmişdir. Düşmən kənd və şəhərlərimizi viran qoyur, ulu yurdlarımızda ağlasığmaz cinayətlər, bəşər tarixində bənzəri olmayan vəhşiliklər törədir. Xocalı soyqırımı bunun təkzibolunmaz sübutudur. Xocalı şəhərinin və onun sakinlərinin başına gətirilən ağır faciə, XX əsrdə bəşəriyyətin şahid olduğu ən dəhşətli hadisələrdən biridir. Bu vəhşiliyi erməni faşistləri keçmiş Sovet ordusunun 366-cı motoatıcı alayının iştirakı ilə həyata keçirmişlər. Qaniçən cəlladlar həmin gün köməksiz dinc mülki əhalini, qocaları, qadınları, uşaqları və beləkdəki dilsiz-ağızsız körpələri aman vermədən qətlə yetirmişlər. Erməni faşistləri həlak olanların başlarının dərisini soymaqla, gözlərini oymaqla, müxtəlif əzalarını kəsməklə, adamları diri-diri torpağa basdırmaq və yandırmaqla dinindən, milliyyətindən, irqindən asılı olmayaraq hər bir insan övladının dərin nifrətinə layiq olduqlarını göstərmişlər. Xocalı faciəsi xalqımıza qarşı törədilmiş soyqırımı-genosiddir. Şəhərin 5 min nəfər dinc əhalisindən 335 nəfər şəhid olmuş, o cümlədən 6 ailə məhv edilmiş, 421 nəfər yaralanmış, 150 nəfər itkin və ya girov düşmüş, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirmişdir. Xocalı şəhəri talan edilmiş, yandırılmış və 3 məktəb, 1 xəstəxana, 3 tibb məntəqəsi, 3 klub, 3 uşaq bağçası və digər tikililər tamamilə dağıdılmışdır. Xocalı şəhəri məhv edilən zaman dövlət əmlakına və şəxsi əmlaka milyardlarla zərər dəymişdir. Sənəddə daha sonra bildirilirdi ki, Xocalı faciəsinin ikinci ildönümü Azərbaycanda dövlət tədbiri səviyyəsində keçiriləcək və xalqımız tərəfindən hüznlə yad ediləcəkdir. Azərbaycan Respublikasının Milli Məclisi hər il fevralın 26-nı "Xocalı Soyqırımı Günü" elan etmək haqqında qərar qəbul etmişdir. Azərbaycan Respublikasının Milli Məclisi bütün dünya azərbaycanlılarına ünvanladığı bu müraciətilə ümumi Vətənimiz Azərbaycana bağlı olan hər bir soydaşımızı, yurddaşımızı və həmvətənimizi fevralın 26-nı "Xocalı Soyqırımı Günü" kimi keçirməyə çağırır. Milli Məclis əmindir ki, bütün dünya azərbaycanlıları onun bu çağırışına qoşulacaq, ermənilərin törətdiyi təcavüzkar işğalçılıq müharibəsində xalqımızın başına gətirilən müsibətləri yaşadıqları ölkələrin ictimaiyyətinə çatdırmaq üçün imkanını əsirgəməyəcək və bununla da Vətən torpaqlarının düşmən tapdağından azad edilməsi uğrunda mübarizəmizə qoşulacaqlar.

Xocalı soyqırımının tanınması ümummilli lider Heydər Əliyevin sayəsində mümkün olmuşdur. Hələ prezident səlahiyyətlərini həyata keçirərkən Ali Sovetin sədri Heydər Əliyev erməni təcavüzünün qarşısının alınması məqsədilə təcili tədbirlər görülməsi üçün BMT Təhlükəsizlik Şurasının dərhal çağırılması xahişilə Təhlükəsizlik Şurasının sədrinə 26 iyul 1993-cü il tarixli yazılı müraciət etmişdir. 1994-cü il 24 fevralda Milli Məclisin qərarı ilə hər il fevralın 26-sının "Xocalı Soyqırımı Günü" kimi yad olunması və bu barədə beynəlxalq təşkilatlara məlumat verilməsi ilə Xocalı soyqırımına ilk dəfə siyasi qiymət verilmiş oldu. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə əsrin bu böyük faciəsi dövlət tərəfindən öz qiymətini aldı. 1995-ci il 24 fevralda Milli Məclisin dünya parlamentlərinə və beynəlxalq təşkilatlara Xocalı soyqırımı ilə bağlı müraciəti oldu. Xocalı soyqırımına siyasi qiymətin verilməsi göründüyü kimi, məhz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu haqda öz fikrini Heydər Əliyev belə ifadə etmişdir: "...1994-cü il 26 fevral ərəfəsində mən Milli Məclisə təklif verdim. Milli Məclis qərar qəbul etdi və Xocalı soyqırımı Xocalı faciəsi günü elan olundu. Bu gün bizim tariximizdə, bizim təqvimimizdə matəm günüdür, hüzn günüdür. Bunu biz qanunla qəbul etdik...". Soyqırımı qurbanlarını daim yad edən, şəhidlərin xatirəsini əziz tutan ümummilli lider Heydər Əliyev 1997-ci il fevralın 25-də "Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında" fərman imzaladı. Prezident Heydər Əliyev Xocalı soyqırımının onuncu ildönümü ilə əlaqədar Azərbaycan xalqına 2002-ci il 25 fevral tarixli müraciətində qeyd edirdi ki, "Bu gün Azərbaycan hökuməti və xalqı qarşısında Xocalı soyqırımı və bütövlükdə ermənilərin Dağlıq Qarabağda törətdikləri vəhşiliklər haqqında həqiqətləri olduğu kimi, bütün miqyası və dəhşətləri ilə dünya dövlətlərinə, parlamentlərinə, geniş ictimaiyyətə çatdırmaq, bütün bunların əsl soyqırımı aktı kimi tanınmasına nail olmaq vəzifəsi durur. Bu, Xocalı şəhidlərinin ruhu qarşısında bizim vətəndaşlıq və insanlıq borcumuzdur. Digər tərəfdən, faciənin əsl beynəlxalq hüquqi-siyasi qiymət alması, onun ideoloqlarının, təşkilatçılarının və icraçılarının layiqincə cəzalandırılması bütövlükdə insanlığa qarşı yönəlmiş belə qəddar aktların gələcəkdə təkrarlanmaması üçün mühüm şərtdir".

Amma Xocalı faciəsinin ağırlığı o zamankı Azərbaycan hakimiyyəti tərəfindən lazımınca qiymətləndirilmədi, əvvələn, soyqırımı aktının qarşısının alınması üçün zəruri tədbirlər həyata keçirilmədi. Məhz ilk vaxtlar rəsmi orqanların Xocalı faciəsini soyqırımı faktı kimi açıqlamaması və bununla bağlı dünya ictimaiyyətinə heç bir məlumatın verilməməsi ağır nəticələr verdi. Yalnız ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə gəldikdən sonra Xocalı faciəsi ermənilərin Azərbaycan xalqına qarşı həyata keçirdikləri soyqırımı aktı kimi təsbit olundu. Ulu öndər Heydər Əliyevin sayəsində Xocalı soyqırımının dünyaya tanıdılması istiqamətində xeyli iş görüldü. Ümummilli lider hər il faciənin ildönümündə Xocalı soyqırımı ilə bağlı xalqa müraciət etmiş, faciənin bütün azərbaycanlıların qan yaddaşına çevrildiyini vurğulamışdır. Misli görünməmiş qəddarlıqla, vəhşiliklə törədilmiş, insanlığa sığmayan Xocalı soyqırımı və ümumiyyətlə, Azərbaycan xalqının ədalətsizcəsinə cəlb olunduğu Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin bütün məşəqqətləri dünya ictimaiyyətinə detalları ilə çatdırılmalı, onların qəti, birmənalı mövqelərini bildirmələri üçün ciddi və məqsədyönlü iş aparılmalıdır. Çünki soyqırıma siyasi münasibət bildirilməməsi yeni soyqırımlar üçün zəmin yaradır. Eyni zamanda soyqırımı Ermənistan tərəfindən həyata keçirilən məqsədyönlü və düşünülmüş siyasətin tərkib hissəsi kimi bəyan olunmalıdır. Təsadüfi deyildir ki, XX əsrin ən qanlı və dəhşətli cinayətlərindən biri olan Xocalı soyqırımının dünya dövlətləri tərəfindən tanınması və soyqırımı kimi qəbul olunması, ona siyasi qiymət verilməsi istiqamətində həyata keçirilən siyasət artıq öz müsbət nəticələrini göstərməkdədir, dünyanın bir çox dövlətləri tərəfindən bu soyqırımı aktı pislənmişdir.

Xocalı faciəsi təcavüzkar erməni millətçilərinin xalqımıza qarşı törətdiyi soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsidir. Azərbaycan dövləti ötən illər ərzində erməni millətçilərinin xalqımıza qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanıdılması üçün ardıcıl fəaliyyət göstərib. Faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva böyük xidmətlər göstərib. Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində də hər il silsilə tədbirlər reallaşdırılır. Xocalı soyqırımını törətməkdə düşmənin məqsədi torpaqlarımızı zorla ələ keçirmək olsa da, bu ağır faciə xalqımızı daha da mətinləşdirdi, qəhrəman övladlarımızı Vətən və milli dövlətçiliyimiz naminə qətiyyətli və mütəşəkkil mübarizəyə səfərbər etdi. İllər keçdi. 2020-ci ildə baş verən Vətən müharibəsində müstəqilliyin övladları 30 il işğal altında qalan torpaqlarımızı azad etməklə yeni reallıq yaratdı, "dəmir yumruq" qalib gəldi. 44 günlük müharibədə misilsiz igidlik nümunələri göstərən qəhrəman ordumuz Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Xocalı faciəsi qurbanlarının da qisasını aldı, şəhidlərimizin qanı yerdə qalmadı. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, Vətən bütövləşdi. Bununla da xalq öz rəhbərinin ətrafında yumruq kimi birləşərək tarixi hədəflərinə qovuşdu.

**Mustafa KAMAL,**
**"Respublika".**

---

**Xocalı faciəsi erməni millətçilərinin yüzilliklər boyu türk və Azərbaycan xalqlarına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi idi.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

***Azərbaycan ərazilərinə ermənilərin kütləvi köçürülmə prosesinə 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələrindən sonra başlanılmış və zaman keçdikcə onlar öz dövlətlərini yaratmaq iddialarına düşmüşlər. Öz məqsədlərinə çatmaq üçün isə bu istiqamətdə məkrli siyasət yeritmiş və zaman-zaman azərbaycanlılara qarşı soyqırımları, qətliamlar törədərək qəsbkarlıqlarını bütün dünyaya nümayiş etdirmişlər. 1992-ci ildən erməni silahlı birləşmələrinin azərbaycanlıların qədim yurd yerlərində keçirdiyi hərbi əməliyyatların coğrafiyası daha da genişlənmiş və respublikamızın bir neçə rayonu bir-birinin ardınca işğal olunmuşdur. Təkcə 1992-ci ildə Xocalıda törətdikləri soyqırımı ermənilərin vəhşi, barbar xalq olduğunu sübut etmək üçün yetərlidir.***

# BƏŞƏRİ CİNAYƏT

Əslində, erməni silahlı dəstələri 1991-ci ilin payızından Xocalını mühasirəyə alaraq hər gün toplardan, ağır texnikalardan atəşə tutur, dinc əhali erməni yaraqlılarının həmlələrinə məruz qalırdı. Şəhər ancaq yerli əhalinin qəhrəmanlığı və müdafiəçilərin cəsurluğu sayəsində yaşayır və müdafiə olunurdu. Əhalinin bir hissəsi şəhəri tərk etsə də, bir hissəsi evakuasiya olunmamışdı. Fevralın 25-də axşam Xocalıya hücum başlamış, şəhərdən çıxa bilməyən əhali ermənilər tərəfindən törədilmiş qanlı qırğının, terrorizmin, etnik təmizləmə və soyqırımı siyasətinin qurbanı olmuşdular.

Həmin gecə Xocalı şəhərində azərbaycanlı əhaliyə qarşı misli görünməmiş qırğın törədilmiş, bu qanlı faciədə xeyli sayda azərbaycanlı məhv edilmiş, əsir düşmüşdü. Xocalının yüzlərlə günahsız sakininin qəddarcasına qətlə yetirilməsi Ermənistan-Azərbaycan münaqişəsi zamanı törədilmiş ən dəhşətli cinayətlərdən biri idi. Ermənilərin həyata keçirdikləri Xocalı soyqırımı insan haqlarının kobud şəkildə pozulması, beynəlxalq hüquqi aktlara məhəl qoyulmamasının təzahürü idi. Eyni zamanda, o vaxtkı ölkə rəhbərliyi də ərazi bütövlüyümüzü, insanların hüquq və azadlıqlarının müdafiəsini təmin edə bilməmişdi.

Xocalı faciəsindən 30 il ötür. Qəsbkar Ermənistanın silahlı qüvvələri 1991-ci il dekabrın 15-də Cəmilli, dekabrın 24-də Meşəli, dekabrın 28-də Kərkicahan, 1992-ci il yanvarın 18-19-da Nəbilər, fevralın 12-nə keçən gecə Malıbəyli və Quşçular kəndlərini yandırıb külə döndərdilər, dinc sakinləri isə qətlə yetirdilər. Fevralın 25-dən 26-na keçən gecə isə əsrin ən böyük faciəsi - Xocalı soyqırımı baş verdi. Bu soyqırımı Xatın, Sonqmi, Ruanda, Srebrenitsa və Holokost faciələri ilə eyni sırada durur.



Azərbaycan xalqına qarşı törədilmiş misli görünməyən bu qanlı soyqırımı, kütləvi və amansız qırğın aktı erməni qəsbkarlarının Azərbaycanın dövlət müstəqilliyini, ərazi bütövlüyünü hədəf götürmüş məqsədyönlü irticaçı siyasətinin ən qanlı səhifəsidir. Bu soyqırımı təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa, bəşəriyyətə qarşı törədilmiş cinayət idi. Dağlıq Qarabağdakı hadisələr müstəqilliyimizin əleyhinə yönəlmişdi və Xocalı soyqırımı da həmin prosesin kulminasiya nöqtəsi idi. Bu, xalqımızın müstəqillik mübarizəsinin qarşısının alınması üçün hazırlanmış ssenari olsa da, bu ssenarinin həyata keçirilməsində alət rolunu oynayan ermənilər planı soyqırımı kimi həyata keçirdilər.

Ermənilərin Xocalı şəhərini hədəfə almaqda məqsədi Qarabağın dağlıq hissəsində azərbaycanlılardan ibarət olan, strateji əhəmiyyətli maneəni aradan qaldırmaq, ümumiyyətlə, Xocalını yer üzündən birdəfəlik silmək idi. Çünki Xocalı elə bir yaşayış məskəni idi ki, o, Azərbaycan tarixinin qədim dövrlərindən müasir dövrə qədər tarix və mədəniyyət ənənələrini özündə əks etdirirdi. Bu mədəniyyət tarixə Xocalı-Gədəbəy mədəniyyəti kimi düşmüşdü. Xocalının kurqanları və digər abidələri, müxtəlif növ məişət əşyaları insan cəmiyyətinin inkişaf dinamikasını özündə əks etdirən maddi mədəniyyət nümunələridir. Erməni işğalından sonra bütün bu maddi mədəniyyət abidələrinin məhv edilməsi və dünyanın ən qədim məzarlıqlarından sayılan Xocalı qəbiristanlığının texnika vasitəsilə darmadağın edilməsi erməni vandalizminin bariz nümunəsi olmaqla yanaşı, dünya mədəniyyətinə qarşı da zorakılıq aktıdır.

Xocalı faciəsi XX əsr tariximizin ən dəhşətli, ən acınacaqlı səhifəsidir. Bu faciə beynəlxalq cinayət olaraq Ermənistanın Azərbaycan xalqına qarşı apardığı məqsədyönlü soyqırımı siyasətinin tərkib hissəsidir. Dünyanın gözü qarşısında baş verən bu dəhşətli soyqırımının əsl mahiyyəti yalnız ümummilli lider Heydər Əliyev 1993-cü ildə siyasi hakimiyyətə yenidən qayıtdıqdan sonra açıqlanmış, 1994-cü ilin fevralında Azərbaycan Respublikasının Milli Məclisi Xocalı soyqırımına siyasi-hüquqi qiymət vermişdir.

Xocalı həqiqətlərinin dünyaya çatdırılması, beynəlxalq aləmdə yayılması, eləcə də bu soyqırımına obyektiv qiymət verilməsi istiqamətində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın gördüyü işlər olduqca təqdirəlayiqdir. Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu bəşəriyyətin ən böyük faciələrindən olan Xocalı soyqırımı haqqında faktların dünyaya çatdırılması istiqamətində sistemli və ardıcıl fəaliyyət göstərir. Bununla yanaşı, 2008-ci il mayın 8-də Ermənistan silahlı qüvvələri tərəfindən Şuşa şəhərinin işğal edilməsinin ildönümündə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" kampaniyası təsis edilmiş və 2009-cu ilin fevralından bu kampaniyaya start verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu sentyabrın 27-dən Ermənistanın hərbi təcavüzünə cavab olaraq 30 ilə yaxın müddətdə işğal altında olan torpaqlarımızı azad etmək üçün genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirdi. Xalqımız bütünlüklə dövlətimizin başçısının ətrafında səfərbər oldu. Azərbaycan torpaqlarının hər qarışının azad edilməsi uğrunda gedən döyüşlər, qüdrətli ordumuzun şanlı tarix yazaraq düşmən üzərindəki sarsıdıcı zərbələri, eləcə də işğal altında olan şəhərlərimizin, yaşayış məntəqələrimizin, həmçinin müxtəlif istiqamətlərdə strateji yüksəkliklərin işğalçılardan azad edilməsi xalqımızda böyük inam və ruh yüksəkliyi yaratdı.

Rəşadətli Azərbaycan Ordusu Ermənistanın hərbi təcavüzünə cavab olaraq, 30 ildən artıq işğal altında olan torpaqlarımızı azad etmək üçün genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirdi. Prezident İlham Əliyevin xarici kütləvi informasiya vasitələrinə verdiyi çoxsaylı müsahibələri Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, davam edən hərbi əməliyyatlarla bağlı tarixə, beynəlxalq hüquqa və ədalətə əsaslanaraq tutarlı arqumentlər üzərində qurulan aydın, məntiqli fikirləri, ölkəmizin haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılmasında müstəsna rol oynadı. Prezident İlham Əliyevin 2019-cu il oktyabrın 3-də "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik toplantısı kimi mühüm beynəlxalq platformada qətiyyətlə söylədiyi "Qarabağ Azərbaycandır və nida işarəsi" devizi 44 günün ərzində reallığa çevrildi, xalqımıza böyük sevinc yaşatdı.

Azərbaycan Prezidenti deyib: "Əgər beynəlxalq birlik Ermənistanı törədilmiş cinayətlərə görə məsuliyyətə cəlb etmək istəmirsə, - necə ki, Xocalı soyqırımına görə heç kim onları məsuliyyətə cəlb etməyib, - biz özümüz onları məsuliyyətə cəlb edəcəyik. Biz özümüz onların cəzasını verəcəyik, özümüz onları cəzalandıracağıq və bizim cəzamız ədalətli cəza olacaqdır. Onlar ən ağır cəzaya layiqdirlər. Ermənistanın hərbi-siyasi rəhbərliyi cinayətkarlardır və biz bu cinayətkarları cəzalandıracağıq".

Azərbaycan Prezidenti bildirmişdir ki, əgər kimsə Ermənistanda revanş haqqında düşünürsə, o, bizim dəmir yumruğumuzu bir daha görəcək. Bu dəmir yumruq onların belini qırdı, onların başını əzdi. Əgər bizə qarşı hər hansı bir təxribat törədilərsə, cavabımız çox sərt olacaq, çox peşman olacaqlar və yenə də acı məğlubiyyətlə üzləşəcəklər. Dövlətimizin başçısı birmənalı olaraq bildirib ki, Azərbaycanın işi haqq işidir və Qarabağ Azərbaycandır!

**İlhamə ƏSGƏROVA,**
**ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin müəllimi.**

---

# Kişinyovda aksiya keçirilib

**Moldovada yaşayan soydaşlarımız Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar BMT və ATƏT-in Moldovadakı nümayəndəlikləri önündə dinc aksiya keçiriblər. Bu barədə Diasporla İş üzrə Dövlət Komitəsinin verdiyi məlumatda bildirilir.**





Moldova Azərbaycanlıları Konqresinin təşkilatçılığı ilə baş tutan aksiya zamanı Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Əllərində Azərbaycan və Moldova bayraqlarını tutan piketçilər "Xocalını unutmayacağıq!", "Xocalıya ədalət!", "Dünya, Xocalı soyqırımını tanı!", "Soyqırımında günahı olanlar cəzalandırılmalıdır!" şüarlarının yazıldığı plakatlar nümayiş etdiriblər.

Bildirilir ki, aksiya Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci ildən keçirilən "Xocalıya ədalət!" beynəlxalq təbliğat kampaniyası çərçivəsində baş tutub. Aksiyanın məqsədi 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı birləşmələrinin sovet ordusunun Xankəndidəki 366-cı motoatıcı alayının köməyi ilə məhz azərbaycanlı olduqlarına görə Xocalıda dinc sakinlərə qarşı dəhşətli soyqırımı törətməsinə yerli ictimaiyyətin və beynəlxalq təşkilatların diqqətini bir daha cəlb etmək olub.

**Bəybala BƏYBALAYEV,**
**"Respublika".**

# İlk dərslər Xocalı soyqırımının ildönümünə həsr olunacaq

**Fevralın 25-i və 26-sı ümumi təhsil müəssisələri və uşaq-gənclər inkişaf mərkəzlərində ilk dərs və məşğələlər Xocalı soyqırımının otuzuncu ildönümünə həsr ediləcək. Bakı Şəhəri üzrə Təhsil İdarəsinin ictimaiyyətlə əlaqələr sektorunun məlumatında bildirilir ki, bununla bağlı Xocalı soyqırımının otuzuncu ildönümünün keçirilməsi ilə əlaqədar Bakı Şəhəri üzrə Təhsil İdarəsinin Tədbirlər Planı təsdiq edilib.**

Tədbirlər Planının təsdiq edilməsi barədə əmrə əsasən, karantin rejiminin tələbləri nəzərə alınmaqla təhsil müəssisələrində Xocalı soyqırımı ilə bağlı tədbirlər (ədəbi-bədii kompozisiyaların, şagirdlərin əl işlərindən ibarət rəsm sərgilərinin təşkili, sənədli və bədii filmlərin nümayişi və s.) keçiriləcək, soyqırımı şahidləri, həlak olmuş şəxslərin ailə üzvləri ilə görüşlər təşkil olunacaq.

**Əli SADIQOV,**
**"Respublika".**